Tarix və onun problemləri, №1-2 2009

NURU MƏMMƏDOV
*BDU-nun Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasının dosenti*

# AZƏRBAYCAN MƏRKƏZİ İCRAİYYƏ KOMİTƏSİ VƏ AZƏRBAYCAN – ERMƏNİSTAN ƏRAZİ MƏSƏLƏLƏRİ (20-Cİ İLLƏR)

Azərbaycan–Ermənistan ərazi məsələləri obyektiv tədqiqata ehtiyacı olan vacib problemlərdən biridir və bu vaxta qədər müstəqil tədqiqat mövzusu olmamışdır. Problemin bəzi məsələləri Respublika tarixşünaslığında az-çox işıqlandırılsa da (1-10) ancaq təəssüflə qeyd etməliyik ki, belə bir vacib mövzu müstəqil tədqiqat obyekti olmamışdır, bəzən obyektiv şərh edilmir və yaxud da ki, bilməyərəkdən dolaşıq salınır. Hətta dərsliklərdə də müəyyən qeyri-dəqiqliyə yol verilmişdir. Belə bir ümumi ifadələr işlədilir ki, Azərbaycanın torpaqları 20-ci illərdə «... hərraca qoyulmuşdur və ərazilərimizin itirilməsində əsas günahkar Azərbaycan Mərkəzi İcraiyyə Komitəsidir...». «Azərbaycanın torpaqlarının hərraca qoyulması» ifadəsi ilə razılaşmaq olsa da, «Az. MİK-nin başlıca günahkar olması» fikri ilə qətiyyən razılaşmaq olmaz. Ona görə ki, Az.MİK yarandığı ilk gündən respublikada ali qanunverici, sərəncamverici və nəzarətedici hüququnu və səlahiyyətini özündə ehtiva etməklə yanaşı, Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsində, yeni dövlət strukturlarının yaradılmasında və ən mühümü respublikanın dövlət strukturlarının yaradılmasında, ərazi bütövlüyünün qorunmasında və mühafizə edilməsində mühüm əhəmiyyətə malik olan siyasi, iqtisadi və beynəlxalq məsələlərin həllində xeyli iş görə bilmiş, dövlət əhəmiyyətli məsələlərin həllində məqsədyönlü fəaliyyət göstərmişdir. Xüsusilə, sərhəd və ərazi məsələlərinin həllində dəfələrlə vacib problemin ədalətli həllinə çalışmışdır. Buna görə də Az.MİK-in fəaliyyətinə qara yaxmaq düzgün deyil. Doğrudur, ZSFSR və SSRİ yaradıldıqdan sonra Az.MİK-in formal müstəqilliyi əlindən alınmış və bir çox xarici və beynəlxalq məsələlərin həlli Mərkəzə tabe edilmişdir. Sovet imperiyasında yaranmaqda olan totalitar amirlik sisteminin yeni piramidası formalaşmaqda idi. Həmin piramidanın zirvəsində dayanan İ.V.Stalin rejimi hər hansı bir müttəfiq respublikaya «müstəqil» daxili və xarici siyasət yeritməyə imkan vermirdi. Çünki «el atası» yaranmaqda olan şəxsiyyətə pərəstişə o qədər aludə olmuşdu ki, özündən güclü və savadlı heç kimi görmək istəmirdi. Bütün müttəfiq respublikalarda olduğu kimi, Azərbaycan SSR-də də «müstəqillik» yalnız kağız üzərində yazılan sabun köpüyünə bənzəyirdi. Kimsə mərkəzin siyasətinə qarışa və ya müdaxilə edə bilməzdi. Hətta ən yaxşı təkliflər və mülahizələr belə Mərkəzə lazım deyildi. Çünki Mərkəz hər şeyi «yaxşı» bilirdi. Mərkəz isə «...türklərə etibar etmir və Azərbaycanın taleyini erməni daşnaklarına tapşırırdı (8, səh.60)

Yuxarıda deyilənlərə rəğmən Az.MİK istisnalıq təşkil etmirdi. Digər müttəfiq respublikalar kimi, Az.MİK-in də hüquq və səlahiyyətləri məhdudlaşdırmışdı, bəzən hətta əlindən alınırdı. Bunula belə Az.MİK ərazi məsələsində, sərhədlərin müəyyən edilməsində prinsipial mövqe tuturdu. Dəfələrlə sərhədlərin müəyyən edilməsində ədalətli təkliflərlə çıxış edirdi. Bu, məsələnin bir tərəfidir. Qaldı ki, məsələnin digər tərəfi, yəni AZ.MİK-in qərarının yuxarı distansiyalar – Zaqafqaziya MİK və SSRİ MİK tərəfindən təsdiq edilməsi məsələsi, bu artıq aysberqin görünməyən tərəfidir. Beləliklə, Azərbaycan-Ermənistan və Azərbaycan –Gürcüstan arasında olan ərazi və sərhəd məsələlərini obyektiv tədqiq etmək arxiv sənədlərinə əsasən mümkündür. Problemin vacibliyini nəzərə alaraq arxiv sənədləri əsasında onun tədqiq edilməsi vacibliyini və zəruriliyini qarşımıza məqsəd qoymuşuq.

Akademik Cəmil Quliyevin son tədqiqatlarında maraqlı fikir irəli sürülür (3, səh.175; 1). Göstərilir ki, Azərbaycan SSR yarandığı gündən ona keçmişdən irs qalan yeni bir ağır problem yenidən közərməyə başladı, bu, ərazi mübahisələri idi. Həmin ərazi mübahisələri 1918-1920-ci illərdə Zaqafqaziyada mövcud olan müstəqil dövlətlər dövründə daha da kəskinləşmişdi. Akademikin fikrincə Azərbaycan Respublikasında həmin mübahisəli ərazi məsələlərinin müxtəlif mərhələləri olmuşdur. Birinci mərhələ: 1918-1920-ci illərdə, ADR vaxtında; ikinci mərhələ: 1920-ci ilin aprelindən noyabrına qədər, yəni Azərbaycan SSR-nin elan edildiyi gündən Ermənistanda sovet hakimiyyətinin qurulmasına qədər; üçüncü mərhələ: 1920-ci ilin noyabrından 1921-ci ilin fevralına qədər, yəni Gürcüstanda Sovet hakimiyyətinin qurulmasına qədər və nəhayət, dördüncü mərhələ: Zaqafqaziyada fəaliyyət göstərən müstəqil sovet respublikaları, onların ZSFSR tərkibinə daxil olması və ZSFSR tərkibində SSRİ-yə daxil olmasına qədər(3, səh.123; 1). Doğrudan da, akademikin belə dövrləşdirməsi ilə biz razılaşa bilərik və Cəmil Quliyev həqiqətən zəngin arxiv sənədlərinə əsasən belə bir düzgün dövrləşdirmə aparmışdır. Biz də ağsaqqal tədqiqatçı alimin belə araşdırmalarından faydalanmışıq. Göstərilən hər bir mərhələdə ərazi mübahisələrinin özünəməxsus xüsusiyyətləri olmuşdur. Zənnimizcə həmin dövrləşməyə beşinci və altıncı mərhələləri də əlavə etmək olar; yəni:

Beşinci mərhələ: SSRİ təşkil edildikdən sonrakı 20-30-cu illər; Altıncı mərhələ: 1988-1994-cü illərdə Azərbaycanın ayrı-ayrı ərazilərinin, kənd, şəhər və rayonlarımızın işğal edilməsi mərhələsi.

Beləliklə, Azərbaycanın ayrı-ayrı ərazilərinin Ermənistan və Gürcüstan tərəfindən ələ keçirilməsi, bu işdə Mərkəzin onlara havadarlıq etməsi məsələləri külli miqdarda arxiv sənədlərində öz əksini tapmışdır. Azərbaycanın torpaqlarının itirilməsində sovet Rusiyasının, yəni Mərkəzin günahları çoxdur. Qəribəsi odur ki, Sovet Rusiyasına ilk sığınan Azərbaycan olduğuna baxmayaraq yenə də Azərbaycan SSR-ə münasibətdə Sovet Rusiyası ikili siyasət yeridir, erməniləri müxtəlif bəhanələrlə müdafiə edirdi. Xristian Ermənistana meyl etmək Rusiya diplomatiyası üçün üstün istiqamət olmuşdur, mübahisəli ərazilər məsələsində ruslar həmişə Ermənistanı müdafiə etmiş və belə ermənipərəst əhval-ruhiyyəsindən də erməni tərəfi bacardıqca istifadə edərək Azərbaycan torpaqlarını zəbt etmişdir. Sovet Rusiyasının ikiüzlü siyasətinin tam mahiyyətini üzə çıxaran traktlardan biri də odur ki, Naxçıvanda ermənilərin hücumlarının qarşısını qətiyyətlə alan, görkəmli türk generalı Veysəl Nüvar yazırdı ki, Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra ruslar ikiüzlü siyasət yeridirdilər (1, səh.39-40).

Zaqafqaziyada XI Ordunun ilk işğal ərazisi Azərbaycan oldu. Düşünmək olardı ki, o dövrün güclü dövləti və ordusu vədinə əməl edəcək və Azərbaycana tez-tez dağıdıcı basqınlar edən daşnak Ermənistanının quldur hərbi birləşmələrindən mühafizə edəcəkdir və vəd etdiyi kimi, ərazi bütövlüyünün təminatına kömək edəjəkdir. Ancaq əksinə oldu, ermənilərin ərazi iddiaları daha da artdı, daşnak quldurlarının hücumları intensiv xarakter aldı. Erməni silahlı quldur dəstələri general Dro, tayqulaq Andronik və polkovnik Ncdenin komandanlığı altında 1920-ci ilin iyulunda daşnaklarla birlikdə Gorus-Naxçıvan, Zəngəzur, Qarabağ ərazilərinə dağıdıcı hücumlar etmişlər. Sonra ermənilər Şuşa, Lənkəran, Astara və b. yerlərə hücum etmişlər. Qafqaz briqadasının 28-ci atıcı diviziyasının rəhbərliyinin verdiyi məlumata görə 1920-ci ilin iyulundan 1921-ci ilin yanvarına qədər erməni silahlı quldurları Naxçıvana, Ordubada dəfələrlə qarətçi hücumlar etmiş, çoxlu adam ödürlmüşlər(11, Azərbaycan Respublikası Mərkəzi Dövlət Arxivi (bundan sonra ARMDA), f.39, s.3, i.2953, v.92-94 ).

Sovet Rusiyasının Qafqaz siyasəti dəfələrlə müzakirə obyekti olsa da Mərkəz problemin həlli yollarını tapa bilmirdi. Mərkəzin rəsmi dairələri, xüsusilə V.İ.Lenin,

İ.V.Stalin, S.M.Kirov, K.Orconikidze, G.V.Çiçerin və b. RK (b)P MK-nın Siyasi Bürosunda Qafqazda və Azərbaycanda həyata keçirilən siyasəti dəfələrlə müzakirə etmiş və necə hərəkət etmək istiqamətlərini müəyyənləşdirsələr də, yenə də Azərbaycana qarşı haqsız olmuşlar. Sovet Rusiyası Zaqafqaziya respublikaları ilə apardığı rəsmi danışıqlarda ərazi məsələlərini müzakirə edərkən ermənilərlə danışıqlarda ancaq ermənilər, gürcülərlə danışıqlarda ancaq gürcülər iştirak edirdisə, azərbaycanlılarla danışıqlarda azərbaycanlılarla yanaşı həm ermənilər və həm də gürcülər iştirak edirdilər (1, səh.47-48). Bu isə danışıqların gedişinə təsir etməyə bilməzdi.

1920-ci il avqustun 10-da Azərbaycan SSR-nin rəhbərliyinin və Azərbaycan xalqının iştirakı və xəbəri olmadan Sovet Rusiyası ilə Ermənistan daşnak hökuməti arasında 6 bənddən ibarət müqavilə imzalandı. Altı bənddən dördü ərazi məsələlərinə həsr edilmişdi. Müqavilənin ikinci bəndində deyilirdi: «Ermənistan Respublikası qoşunlarının yerləşdirilməsi üçün bu sazişlə müəyyən edilmiş zolaqlar istisna olmaqla mübahisəli vilayətlər Qarabağ, Zəngəzur qəzası və Naxçıvan diyarı RSFSR qoşunları tərəfindən tutulur» (1, səh.47-48). Ərazi məsələləri ilə bağlı həmin müqavilədə olduqca ədalətsiz qərar qəbul edilir. Həmin müqavilənin şərtlərinə görə Azərbaycana məxsus plan Şərur-Dərələyəz bölgəsi bütövlükdə qeyd-şərtsiz Ermənistana verildi. Qarabağ, Zəngəzur və Naxçıvan yenə də «mübahisəli ərazilər» elan olundu. Şərur-Dərələyəz bölgəsinin belə şəxavətlə Ermənistana «bağışlanması» ermənilərin iştahını daha da artırdı və Azərbaycanın digər ərazilərinin, o cümlədən Zəngəzurun işğalına siyasi zəmin yaratdı. Bununla Sovet Rusiyası Azərbaycan torpaqları hesabına Ermənistanı sovetləşdirmək siyasəti yürüdürdü (10, səh.128). Ərazi məsələləri ilə bağlı mərkəzin belə ədalətsiz mövqeyinə ciddi etirazını bildirən N.Nərimanov Moskvaya həyacanlı teleqramlar və Azərbaycan nümayəndə heyətini göndərmişdi.

Sovet Rusiyası hər vasitə ilə Ermənistanı sovetləşdirmək siyasəti yeridir və bu yolda ona hər bir köməklik göstərməyi vəd edirdi. 1920-ci il noyabrın 29-da Ermənistanda Sovet hakimiyyəti qurulan günün sabahı, yəni noyabrın 30-da N.Nərimanov AK (b) P MK-nın Siyasi və Təşkilat bürosunun iclasında çıxış etdi və həmin iclasda qərar qəbul edildi. N.Nərimanovun çıxışında və qəbul edilən qərarda Ermənistanda Sovet hakimiyyətinin qurulması təbrik edilir və göstərilirdi ki, bundan sonra Sovet Azərbaycanı ilə Sovet Ermənistanı arasında «heç bir sərhəd mövcud deyildir...». 1920-ci il dekabrın 1-də Bakı sovetinin geniş iclasında qəbul edilən qətnamədə iki sover respublikaları arasında (Azərbaycan və Ermənistan Respublikaları) gələcəkdə iqtisadi, təsərrüfat və hərbi əlaqələrin yaranması və müqavilələrin bağlanması üçün əlverişli şərait yarandığı bildirilirdi. Ancaq ertəsi gün, yəni dekabrın 2-də dərc edilən mətbuat səhifələrində qətnaməyə belə bir fraza əlavə edilmişdi: «Zəngəzur ərazisi və Naxçıvan qəzası Sovet Ermənistanının ayrılmaz hissəsidir» (?!) Şübhə yoxdur ki, bu fraza N.Nərimanovun xəbəri olmadan Q.K.Orconikidze və S.M.Kirovun diplomatik oyunu kimi daxil edilmişdi (3, səh.122). Bu isə ciddi səhv idi. Beləliklə, müxtəlif aldadıcı və fırıldaq yollarla qəsdən «səhvlər» edən Mərkəzin ermənipərəst emissarları ermənilərin işğal planlarına şərait yaradır və onlara köməklik göstərirdilər. Yeri gəlmişkən Zəngəzurun ermənilərə «bağışlanması» barədə Bakı sovetinin geniş iclasının qətnaməsinin bəndləri, Azərbaycan rəhbərliyinin ciddi səhvləri, N.Nərimanovun çıxışının mətninə edilən əlavə frazalar, Zəngəzur və Naxçıvan məsələsi ilə bağlı bir çox sənədlər professor İsmayıl Musayevin monoqrafiyasında geniş tədqiq edilmişdir. Zəngəzurun qərb hissəsinin torpaqları, təxminən 4504,5 kv.km ərazimiz Ermənistana «bağışlandı» (7, səh. 265-271, 328).

Zəngəzuru ələ keçirməyə can atan ermənilər 1920-ci ilin sonundan başlayaraq tez-tez hücumlar edirdilər. Rəsmi İrəvan XI Qırmızı Ordu ilə saziş imzaladı və onun köməyi ilə 1921-ci ilin iyulunda Zəngəzurun yuxarı hissəsini işğal etdilər. Beləliklə, Azərbay-

can torpaqları olan 11.000 kv.km ərazimiz (buraya əsasən Zəngəzur qəzası, Şərur-Dərələyəz qəzası və Göyçə dairəsi daxil idi) Ermənistana verildi(10, səh.131.).

1920-ci il dekabrın 2-də Sovet Ermənistanı ilə RSFSR arasında və Sovet Ermənistanı ilə Türkiyə arasında Gümrü (Aleksandropol) müqaviləsi imzalandı. Sovet Rusiyası ilə Sovet Ermənistanı arasında imzalanan hərbi-siyasi sazişə görə İrəvan quberniyası, Zəngəzur qəzası Ermənistan SSR tərkibində mübahisəsiz ərazi kimi daxil olurdusa, Gümrü müqaviləsinə görə Ermənistan Naxçıvan, Şahtaxtı və Şərur ərazisinə qarışmamaq və həmin ərazilərdə Türkiyənin himayəsində yerli idarəçilik yaradılmasına razılıq verilmişdi. Gümrü müqviləsinin 10-cu maddəsinə görə Sovet Ermənistanı Sevr müqaviləsini etibarsız sayır və özünün 1918-ci il 4 iyun tarixli Batum müqaviləsi ilə nəzərdə tutulan ərazilərinin hüdudlarında mövcudluğu ilə (9 min kv.km) razılaşırdı (7, s. 119).

Yeri gəlmişkən Gümrü müqaviləsini bağlamağa məcbur olan Ermənistan hökumətinin daşnak hərbi qüvvələri həmin vaxta qədər bölgələrdə azərbaycanlı əhaliyə qarşı qırğınlar törədir və tez-tez qarətçi və dağıdıcı basqınlar edirdilər. Azərbaycanlı əhalini və türkləri müdafiə edən Türkiyə hərbi qüvvələri həlledici hücumla daşnak ordularını darmadağın etdi. Ermənistan Gümrü müqaviləsini bağlamağa məcbur oldu, Türkiyə-Ermənistan sərhədləri tənzimləndi(1, səh15).

Lakin sonralar Sovet Ermənistanı Gümrü müqaviləsinin şərtlərini birtərəfli qaydada qəbul etmədi. Bu işdə rəsmi İrəvan hökumətinə yenə də Sovet Rusiyası təsir etmişdi.

Zaqafqaziya Sovet Respublikalarının sərhəd məsələlərini həll etmək üçün 1921-1922-1923-cü illərdə rəsmi nümayəndələr vasitəsilə çoxlu danışıqlar olmuşdu. Yerli nümayəndələr dəfələrlə RKbP Qafqaz Bürosuna, Zaqafqaziya MİK-ə müraciətlər etmiş (11,ARMDA, f.379, s.3, i. 2990, 20-23.), mübahisəli və mübahisəsiz ərazilərin obyektiv həllinə kömək etməyi xahiş etmişlər. Az. MİK-in 15 aprel 1922-ci il tarixli qərarı ilə Azərbaycan və Ermənistan SSR arasında mübahisəli torpaq məsələsini həll etmək üçün 2 komissiya yaradılmışdır:

1)Qazax rayonu üzrə – komissiya üzvü Müseyib Əliyev, İbrahim Vəkilov və Əhməd Abbasov.

2)Qarabağ üzrə – komissiya üzvlərinin tərkibini müəyyənləşdirmək üçün Şuşa qəza İcraiyyə Komitəsinə göstəriş verilmişdi (11, i. 2953, v.262)

3)Azərb. K (b) P-nın Siyasi və Təşkilati Bürosunun 27 iyun 1921-ci il tarixli iclasında Azərbaycan ilə Ermənistan arasında sərhəd məsələsi müzakirəyə çıxarılmışdı. Qərara alınmışdı ki, məsələnin doğru həlli erməni və müsəlman kütlələrini geniş şəkildə sovet quruculuğuna cəlb etməkdən ibarətdir(12, Azərbaycan Respublikası Dövlət Siyasi Partiyalar və İctimai hərəkatlar Arxivi (bundan son-ra ARDSPİHA) f.1, s.2, i.18, v.93).

Rəsmi Moskvanın emissarları Azərbaycanda dövlət və hökumət strukturlarına sürətlə doluşur və bütün sahələrdə üstünlüyü ələ keçirirdilər. Bu baxımdan ali qanunverici hakimiyyət orqanı olan Az.MİK də istisnalıq təşkil etmirdi. Az.MİK-in 9 sentyabr 1922-ci il tarixli instruksiyası ilə tanış olan komissiyanın üzvləri sərhədlərin müəyyənləşdirilməsi ilə əlaqədar olaraq Şuşa, Cəbrayıl, Şamxor, Gəncə, Qazax, Nuxa, Zaqatala, Ağdaş və b. bölgələrə göndərilmişdilər (11,ARMDA, f.379, s.3, iş 3026, v.3.) Həmin komissiya üzvlərinin heç biri azərbaycanlı deyildi. Həmin komissiyalara Az.MİK-in rəhbərliyi tərəfindən qısa müddətdə sərhədləri müəyyənləşdirib təsdiqə verməlari tapşırılmışdı. Doğrudan da, Az.MİK-in təsiri ilə həmin komissiyaların arayışları əsasında Azərbaycanın Bakı, Gəncə, Şamxor, Qazax, Cavanşir, Şuşa, Cəbrayıl, Quba, Zaqatala, Nuxa, Ağdam, Şamaxı, Qubadlı, Salyan və Lənkəran qəzalarının sərhədləri müəyyənləşdirildi(11, v.6-7). Ancaq sonralar Ermənistan hökumətinin iddiaları əsasında bəzi

qərarlarda «mübahisəli ərazilər» yenidən ortaya çıxdı və gərgin mübahisə obyektinə çevrildi. Məs., Kürdüstan qəza İcraiyyə Komitəsinin 18 noyabr 1923-cü il tarixli qərarında göstərilirdi ki, Zəngəzur ilə Qubadlı arasında və Zəngəzur ilə Kürdüstan arasında mübahisəli ərazi məsələsi qalmaqdadır(11, i. 3020, v.2). Tərəflər müxtəlif iddialarla çıxışlar edirlər və kömək üçün Az.MİK-in qərarını gözləyirlər.

Arxiv sənədlərinin araşdırılması nəticəsində məlum olur ki, əvvəllər olduğu kimi, yenə də Ermənistan tərəfindən Qazax qəzasında sərhəd pozuntusu olmuşdur. Mübahisəli ərazi məsələsini həll etmək üçün Qazax qəza İcraiyyə Komitəsi AZ.MİK-ə və Zaqafqaziya MİK-ə rəsmi müraciət edərək(11, i. 2990, v.4) məsələnin ədalətli həllini xahiş etmişdir. Belə bir müraciət Zəngəzur və Kürdüstan qəzalarından da daxil olmuşdu. Deməli, ermənilər yenə də dinc durmur və Azərbaycan torpaqlarını ələ keçirmək üçün müxtəlif bəhanələrdən istifadə edirdilər. Ermənistan MİK 1923-cü ilin sentyabrında Zəngəzur və Qubadlı qəzaları arasında mübahisəli sərhəd məsələlərini həll etmək üçün Zaqafqaziya MİK-ə xahiş etdi. Məsələni həll etmək üçün Zaqafqaziya MİK-in 18 oktyabr 1923-cü il tarixli qərarı ilə Struanın sədrliyi ilə komissiya yaradıldı. Həmin komissiya 1923-cü ilin oktyabrında Kürdüstan və Zəngəzur qəzaları arasında mübahisəli sərhəd məsələsini həll etməli idi(11, v.17). Buradaca qeyd etməyi vacib bilirik ki, Zaqafqaziya MİK-in 18 oktyabr 1923-cü il tarixli qərarı ilə Qazax və Dilican qəzaları arasında sərhəd xətti müəyyənləşdirilmişdi(11, v.5.). Ancaq bu sərhəd xətti qeyri-müəyyən olduğundan ona yenidən baxılmasını zaman özü göstərdi.

Ermənilər bütün zamanlarda olduğu kimi, sovetləşmənin ilk günlərindən başlayaraq Azərbaycan torpaqları hesabına öz ərazilərini böyütməyə çalışırdılar. Bu acgöz və nankor qonşularımız torpaqlarımızı işğal etmək üçün bütün hiyləgər və riyakar əməllərinin hamısından istifadə edir və Mərkəzin havadarlığından lazımınca faydalanırdılar. Bu «başkəsən ermənilər» (akad. V.L.Veliçko) dinc durmur və yenidən yalan və böhtan atmağa başladılar. 1924-cü il noyabrın 3-də Meğri rayon İcraiyyə Komitəsindən Zəngilan qəza İcraiyyə Komitəsinə belə bir sənəd daxil oldu(11, i.3099, v.42):'sənəddə deyilirdi ki, Tuqut kəndi Ermənistanın ərazisinə daxildir. Bunu bilən Tuqut kənd əhalisi böyük bir yığıncaq təşkil etdi və bütün kənd əhalisi ümumi bir ərizə tərtib edib Nüvədi kənd Soveti Sədrinə göndərdi. Həmin ərizədə deyilirdi: (olduğu kimi veririk) 3 gün bundan əvvəl Astazor kəndindən bir yerölçən bizim kəndə gəldi və bir neçə adamı yanına çağırıb dedi ki, Tuqut kənd torpaqlarının Ermənistana verilməsi ilə razılaşın, indi əgər buna razı olmasanız milis gəlib sizi zorla razı salacaq və əlinizdə olub qalan torpaqları da alıb ermənilərə verəcək. Ancaq buna razı olmadıq və ona etiraz etdik. O, acıqlandı və torpaqlarımızı əlimizdən almaqla hədələdi. Xahiş edirik lazımi göstəriş və qərar verəsiniz(11, v.43.).

Məsələyə Zəngilan və Qafan İcraiyyə komitələrinin nümayəndələrinin iştirakı ilə 1924-cü il noyabrın 24-də baxılsa da, məsələ açıq qalmış və mərkəzdən xahiş edilmişdir ki, hər iki rayon arasında sərhəd məsələsini həll etsin(11, v.40). Tarixin bütün zamanlarında olduğu kimi bic və hiyləgər ermənilər yenidən şirin dilini işə salır. Noyabrın 19-da Meğri İcraiyyə Komitəsinin sədri Qurgen Zəngilan qəza İcraiyyə Komitəsinin sədri Abdullayevə belə bir sənəd göndərir. Sənəddə deyilir: (olduğu kimi veririk ki, qoy oxucu ermənilərin hiyləgərliyinin bir daha şahidi olsun) Tuqut kəndi daim Astazor kəndi ilə əlaqədə olub. Tuqut kənd əhalisinin etirazına baxmayaraq sən (yəni Abdullayev) bir kommunist kimi bizim sovet hökumətinin maraqlarını qorumalı və Tuqut kəndinin gələcək inkişafı üçün onun bizə, yəni Meğriyə birləşməsinə razı olmalısan. O ki, qaldı 4-5 nəfər buna etiraz edənlər, onlar yəqin ki, qolçomaqdır və torpaqlarını vermək istəmir. Siz qəti narahat olmayın, əgər Tuqut bizə birləşsə, biz Tuqut kəndlilərindən sovetə seçərik, üzvlüyə seçərik, sizə də, kənd əhalisinə də lazımi köməklik edərik(11, v.46). Bax,

budur erməni hiyləgərliyi, dilə basır, işini görür. Ancaq Tuqut kənd əhalisi mövqeyində qətiyyətli dayanır və bütün ərizələrində və yığıncaqlarda bildirirlər ki, bu vaxta qədər Azərbaycanın tərkibində yaşamışıq, uzun müddət daşnaqlarla mübarizə aparmışıq, sovet hakimiyyətinin ilk illərindən də Zəngilan qəza İcraiyyə Komitəsinə tabeyik və indi də arzumuz odur ki, Azərbaycanın tərkibində, Zəngilan qəza İcraiyyə Komitəsinin tabeliyində yaşayaq(11, v.47).

Şirin dillə istədiyinə nail ola bilməyən ermənilər zorakılığa əl atırlar. Bu dəfə Astazor kəndindən olan bir dəstə erməni özbaşına gələrək Tuqut kənd əhalisinə məxsus olan torpaqları şumlamağa başlayır. Bunu görən Tuqut kənd əhalisi etirazını bildirərkən qarşıdurma yaranır, hətta silahlı ermənilər bir neçə azərbaycanlını həbs edir. Vəziyyətin ciddiliyinə isə mərkəz göz yumur. Lakin kənd əhalisinin şikayəti əsasında Az.MİK işə qarışır və Zaqafqaziya MİK-ə təcili teleqram göndərir(11, v.72). Həmin teleqramda ermənilərin yalanı ifşa edilir, erməni böhtanı rədd edilir və bildirilirdi ki, Sovet hakimiyyətinin ilk illərində də Zaqafqaziya sərhədləri müəyyən edilərkən Tuqut kəndi Azərbaycanın tərkibində olmuşdu. Qəribədir ki, ermənilər belə bir böhtan da irəli sürürdülər ki, guya Meğri ilə Zəngilanın sərhədlərinə baxılarkən M.C.Bağırov (komissiya üzvü) Tuqut kəndi mübahisəsiz ərazi kimi Ermənistan SSR-yə aid edilmişdi. Məsələni aydınlaşdırmaq üçün Az.MİK 1925-ci il fevralın 2-də M.C.Bağırovdan qəti tələb etdi ki, sərhəd məsələsini müəyyən edərkən Tuqut kəndinin taleyi necə həll olunmuşdur. Fevralın 7-də M.C.Bağırov və Az. DİK cavab vermişdir ki, həmin məsələ ilə əlaqədar heç bir məlumata malik deyillər(11, v.72-75) Az.MİK məsələni tam dəqiqləşdirir, belə bir məlumat hazırlayır ki, Tuqut kəndi tarixən Azərbaycanın tərkibində olmuşdur, sovetləşmənin ilk illərində də Azərbaycana aid edilmişdir, əhali də bu istəkdədir və Cəbrayıl qəzasına daxildir. Bu tarixi məlumatı hazırlayan Az.MİK onu yuxarı orqan olan Zaqafqaziya MİK-ə göndərir və Zaqafqaziya MİK-dən xahiş edir ki, Az. MİK-in bu qərarını təsdiqləsin(11, v.79).

Az. MİK-in prinsipial mövqeyi və qətiyyətli qərarları, hazırladığı məlumatlar, Azərbaycan ilə Ermənistan sərhəd məsələləri və mübahisəli torpaq məsələləri müzakirə edilərkən həmişə ədalətli və obyektiv olması ilk vaxtlarda özünü göstərmişdi. Sovet hakimiyyətinin ilk illərində, təqribən 1921-1925-ci illərdə Azərbaycan torpaqları və əraziləri göz bəbəyi kimi qorunub saxlanılmışdı. Ermənilərin bütün iddiaları Az.MİK tərəfindən qətiyyətlə rədd edilmiş və hətta mübahisəli torpaqlar məsələsi Azərbaycanın xeyrinə həll edilmişdir (DQMV istisna olmaqla). Bunu arxiv sənədləri də təsdiq edir. Zaqafqaziya MİK tərəfindən yaradılan Torpaq Komissiyası 1925-ci il sentyabrın 18-də akt tərtib etmiş və bildirmişdir ki, Azərbaycan ilə Ermənistan arasında «mübahisəli torpaq» məsələsi yoxdur(11, i.997, v.9-11). Buna görə də həmin komissiya öz fəaliyyətinə son qoydu. Ancaq sovet inzibati-amirlik sisteminin getdikcə güclənməsi ittifaq ərazisində bütün daxili və xarici siyasət məsələlərinin, o cümlədən tale yüklü məsələlərin həll edilməsi vahid bir Mərkəzin əlində cəmləşməsinə əlverişli zəmin yaratdı. Mərkəz hər hansı bir məsələnin həllində aparıcı qüvvə idi və istədiyi məsələni də bildiyi kimi «həll edirdi». İyirminci illərin ikinci yarısında Mərkəzin himayəsindən istifadə edən Ermənistan SSR yenidən Azərbaycan SSR-yə qarşı torpaq iddiaları ilə çıxış etməyə başlayır. Hətta Ermənistan SSR rəhbərliyi fırıldaq yolu ilə sadə üsula əl atır və bildirir ki, Ermənistanda heyvandarlığın inkişafı, mal-qaranın artımı üçün əlverişli şərait yoxdur və buna görə də «yay əkin sahəsi» adı altında yeni əlavə torpaqlar lazımdır. Ermənistan tərəfi Azərbaycana məxsus olan 4031,5 desyatin torpağı(11, v.10) həmin hiylə ilə keçirmək iddiasına başlayır və bunu Zaqafqaziya MİK-dən xahiş edir.

Zaqafqaziya MİK 1927-ci il yanvarın 11-də Azərbaycan və Ermənistan SSR MİK-lərinə tapşırır ki, Qazax və Dilican arasında olan «mübahisəli torpaq» məsələsini 2 həf-

tə müddətində razılaşıb həll etsinlər və Zaqafqaziya MİK-in təsdiqinə versinlər. Verilən tapşırığa əsasən Azərbaycan tərəfi məsələləri həll etmək üçün dəfələrlə erməni tərəfinə müraciətlər etsə də, ermənilər danışıqların heç birinə gəlməmişdilər. Fevralın 4-də bu barədə Zaqafqaziya MİK-ə məlumat verilmişdi(11, v.6-7) Azərbaycan tərəfinin tapşırıqları müntəzəm icra etməsinə baxmayaraq, birdən-birə Az.MİK-in xəbəri və razılığı olmadan Zaqafqaziya MİK 1927-ci il martın 31-də belə bir ədalətsiz qərar çıxardı: həmin qərara görə Azərbaycanın Zəngəzur qəzasına aid olan və sərhəd zolağında yerləşən 172,8 desyatin ərazi «mübahisəli zonaya» daxil edilərək onun 56,1 desyatini Ermənistana verildi, 116,7 desyatini isə Azərbaycanda saxlanıldı (11, 1000, v.1). Zəngəzur qəzasının 56,1 desyatin torpaq sahəsinin Ermənistana verilməsi barədə Zaqafqaziya MİK-in qərarı yerli əhaliyə məlum olan kimi, dərhal bu ədalətsiz qərara etiraz etmişdi. Az.MİK həmin qərarı rədd etmiş və Azərbaycan Xalq Torpaq Komissarlığına tapşırıq verir ki, bu mübahisəli məsələləri araşdırıb, ədalətlə həll etsin. Materiallar hazırlanır və Az. MİK-ə göndərilir. Az.MİK materialları 1927-ci il sentyabrın 6-da Zaqafqaziya MİK-ə göndərir(11, v.12-13).

Ermənilər heç cür dinc durmur və avantürist planlar quraraq, müxtəlif hiylələrlə Azərbaycan torpaqlarını ələ keçirməyə ciddi cəhd edirdilər. Mərkəz onları tam dəstəkləyirdi. Azərbaycan rəhbərliyi (müxtəlif millətlərdən olan canıyanmaz rəhbərlər) və AZ.MİK təklənmişdi. Əlindəki səlahiyyətlərdən məhrum edilmişdi. Ancaq bu təklənməyə baxmayaraq sözünü demək cəsarətinə malik idi. Fəqət bu cəsarət Mərkəz qarşısında görünmürdü. Mərkəz rəsmi İrəvanı müdafiə edirdi. Azərbaycan torpaqlarının ermənilərə verilməsi yerli əhalini qəzəbləndirirdi. 1927-ci il fevralın 5-də Cəbrayıl qəzasının Eynazur kənd əhalisi adından Az. MİK-ə geniş əhatəli ərizə göndərilmişdi. Kənd əhalisi adından ərizəni Mürşüd Qəhrəman oğlu və Yusif Mənsum oğlu imzalamışdılar. Ərizədə deyilirdi ki, yuxarı orqanların qərarı ilə Zəngilan dairəsi Cəbrayıl qəzasının Nüvədi kənd sovetliyi bizdən alınıb Ermənistanın Meğri rayonuna verilmişdir. Onun tərkibinə Nüvədi, Eynazur və Tuqut kəndləri daxildir. Bu kəndlərin Ermənistana verilməsi heç cür düzgün deyildir. Ona görə ki:

1)Bizim bütün yay və qış əkin sahələrimiz Azərbaycanın Cəbrayıl qəzasının ərazisində yerləşir. Ancaq bizim Ermənistana verilməyimizlə bütün bu əkin sahələrindən məhrum oluruq. Biz köhnə torpaqlarımızı itirməklə Ermənistanda heç nəyə nail ola bilməyəcəyik. Hətta yaxın qohum-əqrəbalarımızı da itiririk.

2)Bizim kənd bütün sahələrdə Zəngilan rayonu ilə əlaqə qurmuşdur. Ermənistana verilməklə bu əlaqələr tamamilə itirilir.

3)Meğri rayonu bizim qonşu rayon olmasına baxmayaraq onunla heç bir əlaqəmiz olmayıb.

4)Biz Ermənistanın inzibati orqanlarının qanunları ilə tanış deyilik, dilini bilmirik, ona öyrənincə isə çox itkilər verə bilərik.

5)Cəbrayıl qəzasında bütün yazışmalar doğma Azərbaycan dilindədir. Meğri rayonunda isə erməni dilindədir. Biz isə erməni dilini bilmirik, onlarla danışmaq üçün bizə tərcüməçi lazımdır.

Bütün bunlara görə biz Nüvədi, Eynazur və Tuqut kəndlərinin vətəndaşları acizanə xahiş edirik ki, arzumuzu, vəziyyətimizi, iqtisadi, siyasi əlaqələrimizi, inzibati orqan və dil xüsusiyyətlərimizi nəzərə alaraq bizim Zəngilan rayonunda qalmağımıza kömək edəsiniz(11, i.1414, v.4-5).

Ancaq yuxarı hakimiyyət orqanları bu xahişləri nəzərə almır və Azərbaycan torpaqlarının Ermənistana «bağışlanmasına» qərar verir. Mərkəzin qeyri-obyektivliyini və zorakılığını görən yerli əhali 108 nəfər kənd əhalisi adından Az.MİK-ə ağrılı-acılı teleqram göndərir. Yalvarışla dolu olan həmin teleqramla tanış olan hər bir adamın qəlbi

sızıldayır. Teleqramda deyilirdi: bizi Meğri rayonuna zorla birləşdirdiyiniz üçün ağır, acınacaqlı vəziyyətə düşdüyümüzü nəzərə alaraq Meğri rayon idarələrinə və orqanlarına tapşırıq verəsiniz ki, erməni dilini bilmədiyimiz üçün Azərbaycan dilində danışmağımıza köməklik edəsiniz. Bizim acizanə xahişimizi nəzərə alın (11, v.6-7).

Yerli əhalinin xahiş və teleqramlarına əsasən Az.MİK tutarlı məlumat hazırlayır. Məlumatda bildirilir ki, Nüvədi, Eynazur və Tuqut kəndləri tarixən Azərbaycan torpaqlarıdır və indi də Zaqafqaziya MİK-in ədalətsiz hökmü ilə barışmaq istəmir. Ona görə də Az.MİK 1927-ci il fevralın 27-də hazırladığı məlumatı Zaqafqaziya MİK-ə göndərir. Tuqut, Nüvədi və Eynazur kənd əhalisinin xahişini nəzərə alaraq həmin kəndlərin Azərbaycan ərazisində, Zəngilan qəzasında qalmasını xahiş edir(11, v.9). Ancaq Az.MİK-in bu xahişini və məlumatını nəzərə almayan Zaqafqaziya MİK məsələni erməni hiyləgərlərinin xeyrinə həll edir.

Zaqafqaziya MİK Rəyasət Heyətinin 1927-ci il 1 yanvar tarixli iclasının qərarı ilə Cəbrayıl qəzasının 24 kəndi, 1927-ci il 20 iyun tarixli iclasının qərarı ilə isə Zəngəzur-Kürdüstan qəzasının 1.065 desyatin ərazisi «mübahisəli ərazi» kimi kimə məxsus olduğu məsələsi müzakirəyə çıxarılmışdı. Hiyləgər ermənilər «öz işini» gördü və Mərkəzin köməyindən istifadə etdi. Zaqafqaziya MİK-in 1929-cu il fevralın 18-də M.Sxakayanın sədrliyi, Azərbaycan nümayəndələrindən isə D.Bünyadzadə, M.C.Bağırov və S.Yaqubovun iştirakı ilə keçirilən iclasında (protokol №3) Mehridə erməni rayonu yaratmaq adı altında Zəngilan rayonunun 3 kəndi – Tuqut, Nüvədi və Eynazur Ermənistana verildi. (bu kəndlərin verilməsinə dair rəsmi qərar yalnız 1968-ci il noyabrın 26-da Azərbaycan KP MK Bürosu tərəfindən çıxarıldı və o 1969-cu il mayın 7-də Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin qərarı ilə təsdiq olundu). 1938-1939-cu illərdə Eynazur kəndi Nüvədi kəndi ilə, Tuqut kəndi isə Astazurla birləşdirildi(7, səh.296).

Beləliklə, Zəngəzurun cənub-qərb torpaqlarının emənilərə «bağışlanması» nəticəsində Mehri rayonu təşkil edildi və Azərbaycan isə Naxçıvandan ayrı salındı. Azərbaycanın Naxçıvanla və Türkiyə ilə əlaqəsi kəsildi, Azərbaycan torpaqları parça-parça edildi(7, səh.296). Yeri gəlmişikən qeyd etməliyik ki, respublika tarixşünaslığında həmin kəndlərin verilməsində Az.MİK-in günahkar olması kimi ifadələrə rast gəlmək olur. Zənnimizcə belə ifadələr doğru deyildir. Ona görə ki, inzibati-amirlik sisteminin yaratdığı piramidanın zirvəsində dayanan Mərkəz bütün iqtisadi, siyasi və inzibati hakimiyyəti öz əlində cəmləmiş və istədiyi hökmün icrasına da özü qərar verirdi. Bu baxımdan dövrün tarixi şəraitini obyektiv təhlil etməyi bacaran hər hansı bir tədqiqatçı bilməmiş deyil ki, Az.MİK həmin zamanda səlahiyyətləri əlindən alınmış bir orqan idi və Mərkəzin qəbul etdiyi qərarları ləğv etmək zorunda və hüququnda deyildi. Bununla belə Az.MİK respublikanın ərazi bütövlüyünün qorunması uğrunda və erməni qəsbkarlarının torpaq iddialarına qarşı müntəzəm mübarizə aparmışdı. Ancaq təəssüflər olsun ki, bəzən Mərkəzin sərt və qəddar siyasətinə qarşı duruş gətirə bilmirdi. Mərkəzlə üz-üzə dayanan Az.MİK əlbəttə, zəif görünürdü.

Zaqafqaziya respublikaları arasında torpaq və sərhəd məsələlərini «həll edən» Mərkəz həmişə erməni tərəfinin sözünü demişdi. Bundan da istifadə edən yaramaz erməni şovinistləri bir-birinin ardınca Azərbaycan torpaqlarını hərisliklə ələ keçirirdilər. Canavar dişlərini itildən erməni başçıları Gəncə dairəsinə məxsus olan Lori-Pəmnək ərazisini «mübaşisəli ərazi»yə daxil edəndə Azərbaycan rəhbərliyi bu ərazi barədə geniş məlumat hazırlayıb Zaqafqaziya MİK-ə göndərdi(11, ARDMA, f.379, s.$3^2$, i.2715, v.6). Həmin sənəddə deyilirdi ki, bu ərazilər lap çoxdan, tarixən Azərbaycan ərazisidir və əhalisi də azərbaycanlılardır. Az.MİK-in göndərdiyi həmin sənəd Zaqafqaziya MİK-in Rəyasət Heyətinin 7 oktyabr 1929-cu il tarixli iclasında müzakirəyə çıxarılır. Müzakirə zamanı 4844 hektar ərazi «mübahisəli ərazi» kimi göstərilir(11, ARDMA, f.379, s.$3^2$,

i.2715, v.6). Azərbaycan tərəfi yoxdan meydana çıxan bu «mübahisəli ərazi»ni əsassız hesab edir və bunu ermənilərin uydurduğu yeni bir avantürist plan adlandırır. Qəribəsi odur ki, həmin iclasda heç bir qərar qəbul etməyən Zaqafqaziya MİK Rəyasət Heyəti az sonra Azərbaycanın xəbəri olmadan Lori-Pəmnək ərazisini, 4844 hektar ərazimizi birdən-birə Ermənistana «bağışlayır». Az.MİK-in bütün etirazları kağız üzərində qalır. Beləliklə, rəsmi Moskva heç kimlə qətiyyən hesablaşmır və Azərbaycan torpaqlarını bol-bol ermənilərə «bağışlayırdı». Azərbaycan rəhbərliyi isə Mərkəzin qərarını rədd etmək zorunda deyildi.

Beləliklə, Azərbaycanın ərazi bütövlüyünə edilən qəsd və torpaqlarımızın zəbt edilməsi mərkəzin «parçala-hökmranlıq et» məkrli və avantürist siyasətinin məntiqi nəticəsi, inzibati-amirlik rejiminin yaratdığı zəhərli milli şovinizmin sərt mahiyyəti idi. Görkəmli dövlət xadimi Nəriman Nərimanovun sözləri ilə desək «...Mərkəz Azərbaycanın mübahisəsiz ərazilərini Ermənistana verir...həmişə Denikini müdafiə etmiş Ermənistan müstəqillik qazanmış və üstəlik Azərbaycanın ərazilərini almışdır»(8, səh.62). Əlavəyə zərurət var: «almışdır» yox, avantürist Mərkəzin himayəsi ilə «işğal etmişdir» desək daha doğru olar.

## *ƏDƏBİYYAT VƏ MƏNBƏLƏR*

1.Azərbaycan tarixi. VI cild, B., 2000
2.Cəmil Həsənli. SSRİ-Türkiyə: soyuq müharibənin sınaq meydanı. B., 2005
3.Дж. Б.Гулиев. Истории образования второй республики Азербайджана. Б., 1997
4.Firdovsiyyə Əhmədova. Nəriman Nərimanov - ideal və gerçəklik. B., 1998
5.Fəzail İbişov. Azərbaycan kəndində sosial-siyasi proseslər (1920-1930) B., 1996
6.Həsən Həsənov. Nəriman Nərimanov – milli təmayüllü kommunist. B., 2004
7.İsmayıl Musayev. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti. B., 1996
8.N.Nərimanov Ucqarlarda inqilabımızın tarixinə dair (İ.V.Stalinə məktub), B., 1992
9.Tofiq Köçərli. Qarabağ: yalan və həqiqət. B., 1998
10.Vaqif Piriyev. Azərbaycanın tarixi-siyasi coğrafiyası. B., 2006
11.Azərbaycan Respublikası Mərkəzi Dövlət Arxivi (bundan sonra ARMDA), f.39, s.3, i.2953, v.92-94
12.Azərbaycan Respublikası Dövlət Siyasi Partiyalar və İctimai hərəkatlar Arxivi (bundan son-ra ARDSPİHA) f.1, s.2, i.18, v.93

**НУРУ МАМЕДОВ**
***Доцент кафедры «История Азербайджана» (по гуманитарным факультетам) БГУ***

## ЦИК И ТЕРРИТОРАЛЬНЫЕ ПРОБЛЕМЫ МЕЖДУ АЗЕРБАЙДЖАНОМ И АРМЕНИЕЙ (20-Е ГГ.)

В статье рассматривается определение территориальных и пограничных вопросов между Азербайджаном и Арменией на основе архивных документов и материалов, а также исследуется позиция ЦИК в этом вопросе конкретными фактами. Показывается, что несмотря на свою принципиальную и требовательную позицию ЦИК Азербайджана довольно часто не мог добиться своего желаемого, оставаясь бессильным перед ЦИК Закавказья и ЦИК СССР. Поддерживаемая официальной Москвой Дашнакская Армения с первых же дней советизации начала захватывать земли Азербайджана. Такой «аукцион» Азербайджанских земель и щедрое «дарение» их Армении, несправедливые и предательские решения ЦИК Закавказья не

что иное, как заговор против Азербайджанского народа и посягательство на Азербайджанские земли. В решении жизненноважных вопросов Азербайджанский ЦИК был бессилен.

**НУРУ МАМЕДОВ**
***Senior lecturer of department (for humanitar faculties)***
***'History of Azerbaijan' of BSU***

## CDC AND TERRITORIAL PROBLEMS BEETWEN AZERBAIJAN AND ARMENIA

In the article investigated the attribute territorials and frontiers questions beetwen Azerbaijan and Armenia on base of archives and materials, and also investigated the position of CDC in this questions by concret facts. In the article was showed that in spite of own principial and demands position, CDC of Azerbaijan could not receved own, being weak in front in CDC of Caucasus and CDC of USSR. Dashnakhs Armenia supporting by official Moscow began to capture the lands of Azerbaijan from first days of sovetization. Such 'auction' the lands of Azerbaijan and generous 'granting' their to Armenia, unjust and treacherous decisions CDC of Caucasus is plot against Azerbaijan people and encroachment on Azerbaijan lands. CDC of Azerbaijan was weak in desicion of vital questions.

***Rəyçilər: t.e.d.İ.X.Zeynalov, t.e.d.L.L.Həsənova.***
***BDU-nun Tarix fakültəsi «Azərbaycan tarixi (humanitar fakültələr üzrə)» kafedrasının 06 fevral 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsəhət görülmüşdür (protokol 07).***